**Cəmilə DƏMİROVA**
**AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**jamiladamirova@yahoo.com**

# QƏDİM FARS MƏDƏNİYYƏTİNİN TƏBLİĞATÇISI İBN ƏL-MÜQAFFA DÖVRÜNÜN ZINDIQLARINDAN BİRİ KİMİ

Manixeyçilərin zındıqlıq ittihamı ilə təqiblərə məruz qalması Abbasilər dövründə başladı. Artıq fütuhat arxada qaldığından dini məsələlər cəmiyyəti daha artıq düşündürürdü. Məhz bu zaman manixey ədəbiyyatı təftiş olunur, manixeyçi şair və ədiblər təqib edilirdi. Əksəriyyəti xilafətin fars əyalətlərindən olan zındıqlar dualist ideyaları və İslama zidd əhvali-ruhiyyələri ilə, bir növ, öz istək və iradələrini təbliğ edirdilər. Bu məqamda İbn əl-Müqaffanın məhz manixeyçi kimi ittiham edilib qətlə yetirilməsini xatırlatmağımız kifayətdir (v. 756).

Onun əsl adı Xosrov ibn Daduyə olub, İslama tapındıqdan sonra Abdulla adını qəbul edib. Abdulla ibn əl-Müqaffa barədə Abbasi xəlifəsi Mehdinin söylədiyi belə bir ifadə geniş yayılıb: "Elə bir zındıq kitabı görmədim ki, gedib İbn əl-Müqaffaya bağlanmasın".

Əslən fars olan ədib İslamı qəbul edəndə belə zərdüştilik ənənələrini unutmur. Rəvayətə görə, o, Abbasilərlə əmiuşağı olan İsa ibn Əlinin şəxsi katibi olmuş və İsanın evində İslama tapınmışdır.

Bu zaman İsa həmin münasibətlə möhtəşəm bir ziyafət təşkil edir. Qonaqlar yığışır, yeməklər gəlir. Yeməyə başlamazdan əvvəl Abdulla ibn əl-Müqaffa zərdüştilərin adətincə bəzi duaları dodaqaltı zümzümə edir. İsa ibn Əli təəccüblə soruşur: "Müsəlman olmağına lap az qalıb, bu nədir oxuyursan?" İbn əl-Müqaffa "Mən bir an da etiqadsız qalmaq istəmirəm" deyə cavab verir.

Abdulla ibn əl-Müqaffanın mövcud idarə üsulundan narazılığı onun atası ilə bağlı ola bilər. Vergi yığarkən rüşvətə yol verən və xəzinə malını oğurlayan Daduyənin qolları Əməvilərin qəddar valisi Həccac ibn Yusufun əmri ilə o qədər burulur ki, o, şikəst olur. Şairin ləqəbi də buradan gəlir: ibn əl-müqaffa "şikəstin oğlu" deməkdir. İbn əl-Müqaffa ləqəbi də "Şilin oğlu" kimi buradan götürülüb.

Rəvayətə görə, o, üç gün üç gecə bir evdə Xəlil ibn Əhməd əl-Fərahidi ilə fikir mübadiləsi etmişdir. İbn əl-Müqaffadan Xəlil barədə soruşduqda o deyir: "Xəlil kimi ağlı elmini üstələyən birini görmədim". Xəlil ibn Əhməd əl-Fərahididən İbn əl-Müqaffa barəsində soruşduqda isə o deyir ki, "İbn əl-Müqaffa kimi elmi ağlından çox başqa birisi yoxdur".

Amma mənbələr bəzən Abdulla ibn əl-Müqaffanın ölümünü Bəsrə valisi ilə olan şəxsi ədavət zəminində izah edir. Abbasilər xanədanında hakimiyyət iddiasında olanlardan biri üsyan qaldırarkən xəlifə Mənsur bu üsyanı amansızlıqla yatırır. Bu zaman o, üsyançını – İsa ibn Əlinin qardaşı Abdulla ibn Əlini əfv edəcəyinə söz verir. Bu barədə bir amannamə yazan İbn əl-Müqaffa amanda "sözümə əməl etməyib amannaməni pozarsam, arvadlarım məndən boşanılmış sayılsın, mal-mülkümə ixtiyarım qalmasın" və s. kimi ifadələr işlədir. Mənsur amannaməni oxuduqda əsəbiləşir. İbn əl-Müqaffanın cəzalanması onun köhnə düşməninə – Bəsrə valisinə tapşırılır. Vali də onu bu cür qəddar üsulla qətlə yetirir.

İbn əl-Müqaffa qədim fars mədəniyyətinin təbliğatçısı idi. Onun "Xudaynamə", "Ayinnamə", "Tacnamə" kimi əsərləri İran adət-ənənələrindən, İran şahlarının tarixindən bəhs edir. Bu əsərlərin sonradan fars ədəbiyyatında yaranan məsnəvi janrına böyük təsiri olsa da, təəssüf ki, onlar zəmanəmizədək gəlib çatmamışdır.

Ədibin "Kitab əs-Səbabə", "Kitab əl-ədəb əl-kəbir" və "Kitab əl-ədəb əs-sağır" kimi əsərləri də var. Bu əsərlər ədəb

elminə, zadəgan təbəqəsinin əxlaq və mənəviyyatının formalaşması məsələlərinə və katiblik sənətinə həsr olunmuşdur.

İbn əl-Müqaffa yaradıcılığında əsas yer tutan “Kəlilə və Dimnə” əsəri alleqorik bir əsər olub insan cəmiyyətinə xas naqislikləri heyvanların timsalında tənqid edir. Əsər sanskrit abidəsi olan “Pançatantra”nın pəhləvi dilində olan tərcüməsindən ərəbcəyə sərbəst şəkildə tərcümə olunmuşdur. Əl-Biruninin fikrincə, İbn əl-Müqaffa bu əsərdə öz fikir və mülahizələrini, bəzi manixeyçilik ideyalarını əks etdirmişdir. Əsər sonradan dəyişikliklərə məruz qalmış, ondan İslama uyğun gəlməyən hissələr çıxarılmışdır.

İbn əl-Müqaffaya "المعارضة للقرآن" (“əl-Muarada lil-Quran” – “Qurana qarşı çıxma”) adlı bir əsər də aid edilir. Əsər zəmanəmizədək gəlib çıxmasa da, adından İslama və müqəddəs Qurana zidd olduğu anlaşılır. Bu səbəbdən zeydi imamlarından Qasim ibn İbrahim “əl-Rədd alə əl-zındıq əl-ləin İbn əl-Müqaffa” (الرد على الزنديق اللعين ابن المقفع) – “Qorxunc zındıq İbn əl-Müqaffaya cavab” adlı bir əsər də yazmışdır. Həmin əsər 1927-ci ildə Romada şərqşünas alim M.Guidi tərəfindən nəşr edilmişdir.

Azərbaycan şərqşünaslığında Abdulla ibn əl-Müqaffanın həyat və yaradıcılığına həsr edilmiş irihəcmli elmi işlərdən R.Axundovanın “İbn əl-Müqaffanın həyat və yaradıcılığı” adlı dissertasiyasını qeyd etmək olar ki, burada müəllif dövrümüzə qədər gəlib çatan məlumatlar əsasında İbn əl-Müqaffanın həyatını və eyni zamanda əlimizdə olan əsərlərini tədqiq etmişdir.

**Nəticə:** Abbasilər dövründə müxtəlif xalqların Bəsrə, Kufə, Bağdad kimi şəhərlərdə birgə yaşaması kosmopolitan cəmiyyət və multikultural ədəbiyyat yaradır. Cəmiyyətdə geniş yer alan zındıqlıq, yəni dini ayin və ehkamlara əməl etməmə, eyş-işrətə meyil məhz bu dövrdə vüsət tapır. Bu yeni istiqamət xüsusilə farslar arasında güclü idi. Abbasilər dövründə inkivizisiya qur-

banlarının böyük əksəriyyəti əcəmlər idi; kafirlik, zındıqlıq bir qayda olaraq dualizm və manixeyçiliklə əlaqələndirilirdi.

**Jamila Damirova**

## IBN AL-MUGAFFA AS A PROPAGANDIST OF ANCIENT PERSIAN CULTURE

***Summary***

In Abbasid society, apostates were often accused of Manichaeism. Arab authors claim that Ibn al-Muqaffa was very scientific. He is known as a man of scientific superiority. Although Abdullah ibn al-Muqaffa is known as one of the Zindiks of his time, we do not have any text that reflects his Zindik views. All of these texts were probably burned during the time of the Caliph Mahdi.